# Vətən müharibəsindən sonra insan hüquqları siyasətinin əsas istiqamətləri...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması

**Azərbaycanın müstəqillik qazandıqdan sonra BMT-nin üzvü olması, daha sonra 2001-ci ildə AŞPA-ya üzv seçilməsi və bütün bunlarla yanaşı bir çox beynəlxalq sənədlərin iştirakçısına çevrilməsi insan hüquqları sahəsində mühüm amillərdən sayılır. Bununla yanaşı, Azərbaycanda Ombudsman Aparatı yaradıldı ki, bu da insan hüquqlarının müdafiəsi və insan azadlığının bərqərar olması üçün çox mühüm işlər həyata keçirildiyinin göstəricisidir.**



Həmçinin ölkəmizdə məhkəmələrdə də insan hüquqlarının müdafiəsi və insan azadlığının bərqərar olması üçün mühüm işlər görülüb. Həm qanunvericilik təkmilləşdirilib, həm də savadlı, bilikli kadrların yetişdirilməsi həyata keçirilib. Həmçinin vəkillik institutu da son illərdə özünün inkişaf dövrünü yaşamaqdadır. Vəkillərin sayının artırılması, vəkillik bürolarının yaradılması, vəkillərin əlçatan olması da bu yöndə inkişafı təsdiq edən əsas faktorlardan biridir. Bununla yanaşı Azərbaycanda elektron məhkəmələrin yaradılması üçün də mühüm işlər həyata keçirilir. Ümumiyyətlə, hüquqi dövlətlərdə ən əsas qaydalardan biri insan və vətəndaş azadlıqlarıdır. Bunları sadaladığımız zaman hamının qanun və məhkəmə qarşısında bərabər olduğu vətəndaş cəmiyyətinin bərqərar olunmasını da unutmamalıyıq.

Ölkəmizdə İnsan hüquqları 1995-ci ildə qəbul edilmiş ölkə Konstitusiyası ilə qorunur. Konstitusiyanın 12-ci maddəsində insan hüquq və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədi olduğu göstərilir. Azərbaycanın müasir inkişaf dövründə hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edilib.

### Dövlətimiz ölkə qanunvericiliyi və beynəlxalq öhdəliklər çərçivəsində təminat verir

Azərbaycan dövləti Qarabağ bölgəsində yaşayan etnik erməni sakinlərinin bərabərhüquqlu vətəndaşlar kimi cəmiyyətimizə inteqrasiyasında qərarlıdır. Bu xüsusda, dövlətlərin daxili işlərinə qarışmamaq, milli azlıqlara mənsub şəxslərin inteqrasiyasına xələl gətirməmək və ya qonşu dövlətlərin ərazisində separatizmi qızışdırmamaq üzrə öhdəliklərə ciddi şəkildə riayət edilməli, bütün dünya ictimaiyyəti reinteqrasiya prosesini tam dəstəkləməlidir. Dövlətimiz hər zaman Qarabağda yaşayan erməni vətəndaşlarımızın təhlükəsizliyini, sağlamlığını və təminatını öz üzərinə götürməyə hazır olduğunu bəyan edir. Lakin indiyədək həm Ermənistan rəhbərliyi, həm də vaxtilə Rusiya sülhməramlılarının məsuliyyət zonasında mövcud olan erməni separatçıları dinc əhalinin Azərbaycan cəmiyyətinə inteqrasiya edilməsinə imkan vermirdi. Ordumuzun 24 saat ərzində keçirdiyi lokal antiterror tədbirləri nəticəsində Qarabağdakı qanunsuz silahlı dəstələr təslim oldu, bundan bir neçə gün sonra isə separatçı rejim özünü buraxmağa məcbur oldu. Belə bir şəraitdə müəyyən beynəlxalq dairələr Qarabağın erməni sakinlərinin hüquqları ilə bağlı "narahatıqlarını" ifadə edirlər. Azərbaycan isə buna tam təminat verir.

### Azərbaycan Prezidentinin mesajı...

Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 27-də ABŞ Prezidentinin xüsusi nümayəndəsi, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAID) rəhbəri Samanta Paueri, ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Yuri Kimi və ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Lui Bononu qəbul edərkən bu məsələ diqqət mərkəzində olub. Qarabağ bölgəsində yaşayan erməni sakinlərin hüquqlarına toxunan Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycanda yaşayan digər etnik azlıqlar kimi, onların da hüquqları ölkə qanunvericiliyi və beynəlxalq öhdəliklər çərçivəsində təmin ediləcək. Dövlət başçısı qeyd edib ki, Azərbaycanın nümayəndələri ilə Qarabağın erməni sakinlərinin təmsilçiləri arasında reinteqrasiya istiqamətində dialoq aparılır.

Yeri gəlmişkən, dövlətimiz bu xoşməramlı mövqeyini həmişə bəyan edir.

### Bundan sonra Azərbaycan Konstitusiyasına uyğun olaraq...

Lakin müəyyən qüvvələr Qarabağın dinc erməni sakinlərinin cəmiyyətimizə reinteqrasiyasına mane olurdu. Son günlər Ermənistana gedən Qarabağın erməni sakinləri jurnalistlərə müsahibələri zamanı vaxtilə azərbaycanlılarla birgə yaşamalarını məmnunluqla xatırlayır, azərbaycanlı dostlarının adlarını çəkirlər. Bu faktlar deməyə əsas verir ki, bölgədə dinc birgə yaşayış tamamilə mümkündür.

Beləliklə, Azərbaycan çoxmillətli və çoxkonfessiyalı dövlətdir. Ölkəmizdə bütün xalqların nümayəndələri bərabər hüquqlar çərçivəsində, təhlükəsizlik şəraitində yaşayırlar. Bu hüquqlar Qarabağın erməni sakinlərinə də şamil olunacaq. Artıq nəticə göz önündədir. Xoşluqla Azərbaycanın qanuni tədbirlərinə əməl etməyənlər lokal antiterror tədbirləri nəticəsində diz çökdülər. Bundan sonra Azərbaycan Konstitusiyasına uyğun olaraq qanunlarımız çərçivəsində yaşamaq istəyən ermənilərin bütün hüquqlarının təmin olunması üçün "yaşıl işıq" yanır. Azərbaycanın mövqeyi budur ki, Qarabağ ermənilərinin cəmiyyətimizə reinteqrasiya prosesi sürətləndirilsin, bölgəni hərbsizləşdirilməklə dayanıqlı sülh təmin olunsun.

***Məhəmmədəli QƏRİBLİ***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**